No: 03 2025
https://doi.org/10.64400/ea25-3-24
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

**UOT: 340.12:321.7**

# MÜASIR QƏRB KONSEPSIYALARINDA VƏTƏNDAŞ CƏMIYYƏTI: LIBERAL DEMOKRATIYA VƏ QLOBALLAŞMA KONTEKSTINDƏ

**Mehriban BABAXANOVA**

Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
**Yazışılan müəllif:* *mehribanbabakhan@adu.edu.az*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 11.09.2025*
*Nəşr edilmə tarixi: 28.10.2025*

**AÇAR SÖZLƏR:**
vətəndaş cəmiyyəti; liberal demokratiya; qloballaşma; insan hüquqları; ingilis-sakson modeli; millətçilik; sivilizasiyaların dialoqu

**XÜLASƏ**

Məqalə vətəndaş cəmiyyətinin konseptual əsaslarının və onun müasir dünyada rolunun təhlilinə həsr edilmişdir. Ümumi məlumat: Tədqiqat vətəndaş cəmiyyətinin tarixi inkişaf mərhələlərini və bu anlayışın formalaşmasına təsir göstərən hüquqi, fəlsəfi və sosial-iqtisadi amilləri araşdırır. Məqsəd vətəndaş cəmiyyətinin demokratik dövlətin və hüquqi sistemin ayrılmaz hissəsi olduğunu göstərməkdir. Metodlar: Araşdırmada müqayisəli-hüquqi analiz, tarixi yanaşma və mənbələrin sistemləşdirilməsi üsulları tətbiq edilmişdir. Əldə olunan nəticələr: Nəticələr göstərir ki, vətəndaş cəmiyyəti insan hüquqlarının qorunması, qanunun aliliyinin təmin edilməsi və sosial həmrəyliyin gücləndirilməsi üçün mühüm mexanizmdir. Liberal demokratiya şəraitində bu institut dövlətin funksiyalarını tamamlayır və ictimai iştirakçılığı artırır. Yekun nəticə: Qloballaşma dövründə vətəndaş cəmiyyəti yalnız milli sərhədlərdə deyil, beynəlxalq səviyyədə də hüquq və demokratiya dəyərlərinin qorunmasında əsas amil kimi çıxış edir.

## GİRİŞ

“Müasir Qərb liberalizmi” və yaxud “Qərb liberalizm demokratiyası” dedikdə, biz daha geniş planda aşağıdakı iki xətti diqqətdən yayındırmamalıyıq:

1. Hegel liberalizmi;
2. ingilis-sakson liberalizmi.

İctimai praktikada reallaşması və nisbi zəfər çalması baxımından, şübhəsiz ki, üstünlük ingilis-sakson xəttinə məxsusdur. Hüquq və azadlıq, ədalət və həqiqət zəmilərinin əvvəlcədən daha səlist olması və universallıq xarakteri cəhətdən hegel xətti danılmaz üstünlüyə malikdir. Ən vacib olan isə bundan ibarətdir ki, hegel xətti bəşəriyyətin perspektivi, ümumbəşəri dəyərlərin təntənəsi baxımından ingilis-sakson liberalizmi ilə müqayisəyə sığmazdır. Məhz bu səbəbdən də bütün mütərəqqi ideya və prinsiplərin, ümidverici ideallarِın yalnız ingilis-sakson liberalizm ilə, onun xətti ilə bağlı olduğunu düşünmək, fikrimizcə,uğurlu hesab oluna bilməz. Əksinə, bütün malli-iqtisadi, informasiya-texnoloji, industrial və postindustrial qazanclara, nailiyyətlərinə baxmayaraq, ingilis-sakson liberalizmi bir növ dalana dirənmiş və fəaliyyət göstərdikcə bəşəriyyətə daha çox və böyük fəlakətlər gətirən istiqamət, “çıxış yolu”dur.

Həqiqi demokratik siyasi (dövlət rejimlərinin) rejimlərin və ədalətli dünya nizamının formalaşması ingilis-sakson modeli əsasında qeyri-mümkündür. Bu modelin hazırda da bir çox qüvvələr tərəfindən alqışlanmasına baxmayaraq, onu mütləq mənada bəşəriyyətə uğurlar qazandıracaq tərəqqi xətti kimi qəbul etmək düzgün olmazdı.

Fakt ondan ibarətdir ki, ingilis-sakson liberalizmi bütün gücü ilə yalnız müsəlman ölkələrini viranə qoyan, müsəlman Şərqi xalqlarını əsarətə sürükləyən və zülmətə qərq edən, zillətə məruz qoyan “ideal” deyil. O,Avropanın bir sıra regionlarında, hətta Amerika Birləşmiş Ştatlarının özündə

belə, insanları, bütöv xalqları və etnosları bir-birindən ayıran, hipertəbəqələşmə və yeni sosial-iqtisadi, mədəni istismar formaları təzahür etdirən “insanlığa” yad olmayan nə varsa, hamısını amansızcasına məhvə aparan bəşəri əqidədən son dərəcə uzaq bir xəttdir.

Diqqətəlayiq haldır ki, ABŞ-n aparıcı politoloqlarından biri olan S.Hantinqton belə bir etirafı dilə gətirmək məcburiyyətində qalmışdır; “Bütün dünyada, xüsusilə də ABŞ-da, iqtisadi qloballaşma nəticəsində milləti bir növ sarsıtmış, elita ilə millətçi ictimaiyyət arasındakı uçurumu daha da dərinləşdirmişdir. Biznesmenlərdən, məmurlardan, alim və jurnalistlərdən ibarət beynəlxalq sinif yaranmışdır ki, bu da daim səyahət edənlərin sinfini xatırladır. Onlar ticarətin, sərmayələrin, gəlirləri genişlənməsi siyasətini müdafiə etməklə, liberal demokratiyaya və bazar iqtisadiyyatına yardımçı olurlar. Bu məqsədlər isə onların ölkələrində geniş ictimaiyyətin iqtisadi maraqlarına ziddir”. (Khantington, S. (2004). *Kto my? Vyzov amerikanskoy natsionalnoy identichnosti* [Who are we? The challenge of American national identity]. Moscow.)

Müəllif çıxış yolu kimi klassik mühafizəkarlarla neomühafizəkarların sağlam millətçiliyə dəstək vermək ətrafında birləşməsini təklif edir. Aydındır ki, böyük tarixi problemdən çıxış yolunu yalnız millətçiliyə yardım zəminində ölkədaxili qüvvələrin birləşməsində görən politoloq aşağıdakı belə bir tezis də çıxış etməli idi: “Sivilizasiyalar arasında toqquşma zəruridir”. Fikrimizcə, qeyd edilən mülahizə ilə ilk baxışda razılaşmaq və onu düzgün saymaq olar. Bir halda ki, dünyanın fövqəl dövlətinin aparıcı politoloqu hətta ölkədaxili ziddiyyətlərin həllini yalnız millətçiliyə dəstək verməkdə, yaxud ona haqq qazandırmaq da görür, demeli ciddi narahatçılığa əsas vardır və belə bir bədniyyət nəticənin hasil olmasına da bir o qədər şübhə yeri qalmır. Azərbaycanın görkəmli filosoflarından biri Y.İ.Rüstəmov əsərlərinin birində həmin məsələ ilə əlaqədar yazmışdır: “Qeyd etmək lazımdır ki, sivilizasiyaların başqa sivilizasiyalarla toqquşmasını labüd hesab edən Hantinqtonun bu fikirini kökündən yanlış hesab edirik.Toqquşma deyil, dialoq zəruridir”. (Rustamov, Y. I. (2005). Sivilizasiyaların dialoqu-bəşəriyyətin vəhdətinə aparan yol [The dialogue of civilizations - the path leading to the unity of humanity]. *Şərq-Qərb: Sivilizasiyaların dialoqu, 1.*)

Fikrimizcə, sivilizasiyaların dialoqu xeyirxah tezis qismində qəbul edilə bilər və həmin tezis Hantinqtonun fikrinin tam əksini təşkil edir. Lakin bu gün müxtəlif böhranlar məngənəsində çabalayan dünyanın vəziyyətini də nəzərdən qaçırmaq olmaz. Müxtəlif regional münaqişələr, silahlı toqquşmalar bəşəriyyəti elə bir vəziyyətə gətirmişdir ki, bir çox məqamlarda diplomatlarının rolunu iri çarxi silahlar ifa edir. Bəzi məqamlarda hətta Birləşmiş Millətlər Təşkilatının, yaxud digər beynəlxalq təşkilatların səsi eşidilmir. Bir sözlə, bizim mülahizəmizə görə, sivilizasiyalar ilk növbədə dialoqa hazır olmağı bacarmalı, buna nail olmaq üçün öz səylərini birləşdirməlidirlər.

Gerçəklik ondan ibarətdir ki, hər tərəfdə cəmiyyətdaxili güclü differensiasiya müşahidə olunur, insanların maraqları, vəziyyətləri, mənəvi-psixoloji durumları hədsiz dərəcədə bir-birindən uzaqlaşaraq yadlaşır. Hətta ABŞ kimi ən zəngin və iqtisadi cəhətdən güclü dövlətdə “ümumi ovqat”dan əsər-əlamət qalmamışdır.

İngilis-sakson ənənələrindən törəyən amerikasayağı qloballaşmanın meydana çıxardığı “iqtisadi adam” müxtəlif xalqların və ölkələrin inkişafında baş verən qeyri-tarazlığı, ədalətsizliyi nəinki aradan qaldırmağa və yaxud digər nöqsan və çatışmazlıqları azaltmağa qadirdir, əksinə, bunu tədricən dərinləşdirməyə məhkumdur. O, tarazlığın pozulduğu dünyada meydana çıxmış reallıqlarla hesablaşmalı, kütləvi hökm almış kapitalın diktəsi altında hərəkət etməlidir.

İnsanın, vətəndaşın hüquq və azadlıqları haqqında saysız-hesabsız sənədlər qəbul olunub olunmuşdur ki, onlardan cild-cild kitablar tərtib etmək olar. Lakin bu problemin kökündə demokratiya pərdəsinə bürünmüş kapital diktəsi varsa, deməli, insan hüquqlarına heç bir real və etibarlı təminatdan söhbət gedə bilməz. Deməli, insanın yaşayıb yaratmasında, onun daxili aləmində ümumən sosiallaşmasında belə bir münaqişə potensialı şəriksiz hökmranlıq edir ki, bu özünü bəzən açıq istiqamətlərdə büruzə verir.

Münaqişəli şərait müasir insanı üç əsas istiqamətdə, bir-birilə çarpazlaşan aşağıdakı yadlaşma, özgələşmə formalarına vadar edir:

1. öz-özünə münasibətə özgələşmə;
2. başqalarına, yaxın ətrafa münasibətə özgələşmə;

3. dünyaya, o cümlədən təbiətə, ətraf aləmə münasibətdə özgələşmə.

Aydındır ki, göstərilən istiqamətlər üzrə cərəyan edən özgələşmə formaları bir sosial hadisə-proses kimi müasir sosiallaşmanın mahiyyətini səciyyələndirilməlidir. Müasir sosiallaşmada maddi-iqtisadi amillərin üstünlük təşkil etdiyini nəzərə alaraq bəzi mütəxəssislər onu "iqtisadi dövr"ün ifadəsi kimi qiymətləndirir və bu kontekstdə də mövcud tarixi mərhələni xarakterizə etməyə çalışırlar. Məsələn, Q.Malaşxiya yazır: "İqtisadi dövrün bir qəbahəti ondan ibarətdir ki, insanlar iki düşərgəyə bölünmüşlər. Həmin düşərgənin birində maddi və mənəvi sərvətlər yaradanlar (fəhlələr, kəndlilər, konstruktorlar, rəssamlar, yazıçılar, alimlər və ixtiraçılar), digərində isə müxtəlif mənimsəmə üsullarından istifadə etməklə yaradılmış sərvət və nemətləri ələ keçirənlər, bu sərvət və nemətlərdən istifadə etmək hüququna malik olanlar yerləşir".(Malashkhiya, G. (2003). Perspektivy cheloveka v globaliziruyushchemsya mire [Human perspectives in a globalizing world].) Saint Petersburg.Fikrimizcə, ibrətamiz mülahizədir. Müəllifin mövqeyini izah etməyə, yaxud onun bu fikrinə nəyi isə əlavə etməyə heç bir ehtiyac yoxdur.

İngilis-sakson ənənələrindən törəmiş qloballaşmanın yekunu olaraq formalaşan cəfəng həyat tərzində və bu həyatın dinamikasında elm mədəniyyət, incəsənət və bədii ədəbiyyat da bu əşya-əmlak toplusuna, maddi sərvətlərə və onların sahiblərinə tabe edilmişdir və edilməkdədir. Belə şəraitdə daha çox məzmunsuz, ideyasız, sosial yükünə görə mənasız və hətta insan zövqünü oxşamayan və insan üçün hətta birbaşa ziyanlı əsərlər bollugu bütün sərhədləri aşır. Amerikasayağı ekspansionist qloballaşmanın bütün dünyaya yaymaq istədiyi homogen, daxilən yoxsul, əxlaqi-mənəvi vektoru olmayan "üzdəniraq mədəniyyət"in istilası nəticəsində ayrı-ayrı xalqların tarixən, əsrlər boyu formalaşmış milli-mədəni irsi, adət və ənənələri, sosial dəyərləri faktiki olaraq müdafiəsiz qalır.

Qloballaşmanın ABŞ patronajlığı altında səlib yürüşü insanlara yalnız zülüm gətirmir. Onun formalaşdırdığı "iqtisadi adam", acgöz, tamahkar korporasiya və şirkətlər, transmilli mafiya mərkəzləri hətta təbiətin, ətraf mühitin bilavasitə özünə olümcül zərbələr endirməkdədir. Ayrı-ayrı kütləvi qırğın silahlarının istər quruda, istərsə də açıq dəniz və okeanlarda fasiləsiz olaraq sınaqdan keçirilməsi flora və faunanı məhv edir. Atmosferin zəhərlənməsi müxtəlif yoluxucu xəstəliklərin sürətlə yayılması və insanların vaxtsız ölümü ilə nəticələnir. Təbiətə amansız, yırtıcı və antirasional münasibət irrasional şüuru, düşüncəni doğurur, yaxud, əksinə, irrasional şüur epidemiyası təbiətə qarşı çevrilən antirasional münasibəti daha da kəskinləşdirir.

Hələ vaxtilə Frankfurt Kalmaniya məktəbinin görkəmli nümayəndəsi Maks Norkhaymer (1895-1973) göstərirdi ki, industrial sivilizasiyanın əsasında duran rasionalizm kökündən qeyri-sağlamdır. Təbiətə münasibətdə insan dərrakəsinin xəstəliyindən söhbət gedirsə, dərk etmək lazımdır ki, bu xəstəlik hansısa tarixi mərhələdə yaranmayıb, o, necə deyərlər, anadangəlmə, qabaqcadan təməldə qoyulmuş xəstəlikdir. M. Norkhaymerin bu fikri ilə razılaşmamaq qeyri-mümkündür. Məhz dərrakənin xəstəliyi, onun fikrincə, insanın təbiət üzərində hökmranlıq etmək istəyini törətmişdir. Fateh iradəsi qanunların öyrənilməsini, anonim bürokratik təşkilatın qurulmasını və nəhayət, insanın özünün alətə çevrilməsini tələb etmişdir ki, industrial və müasir postindustrial cəmiyyətlər bu tələbə uyğun fəaliyyət göstərmişlər. M. Norkhaymer 1947-ci ildə yazdığı "Zəkanın tutulması. İnsturmental zəkanın tənqidi" əsərində o dövrə müasir olan instrumental cəmiyyətə məxsus nöqsanları aşkarlayıb, həmin nöqsanların əsasında duran rasionallıq anlamını təhlil edir və bu tipdən olan "rasionallığın" hansı fəsadlar törədə biləcəyini qabaqcadan söyləyir. Müəllif apardığı təhlilləri "Maarifçiliyin dialektikası" əsərində davam etdirmiş, həmin əsərdə sivilizasiyanın tarixi məntiqinin tədqiqi oxucunun belə bir nəticə yaxınlaşdırmışdır: emansipasiya olunmuş bəşəriyyətin yuxuya getməsi yeni barbarlıq dövrünün bərqərar olması ilə yekunlaşa bilər. (Reale, D. (1997). Zapadnaya filosofiya ot istokov do nashikh dney [Western philosophy from origins to our days] (Vol. 4). Moscow.) M. Norkhaymer belə bir qənaətə gəlmişdir ki, texniki imkanların tərəqqisi humanistsizləşdirmə prosesi ilə müşayiət olunur, beləliklə, əsas məqsəd insan ideyası dağılır. İndustrial cəmiyyət sistemi məqsədləri vasitələrlə əvəz etdikcə insanilik, emansipasiya, yaradıcı fəallıq, tənqid etmə qabiliyyəti təhlükə ilə qarşılaşır. Onun fikrincə, industrial cəmiyyətin fəlsəfi tərəfi obyektiv dərrakə fəlsəfəsi deyil. Burada özü-özlüyündə

və özü üçün heç bir ağıllı məqsəd yoxdur. Təfəkkür istənilən hər bir məqsədə (fəzilətlə və ya qəbahətlə) qulluq edə bilər. O, bütün sosial hərəkətlərin alətidir, sosial və şəxsi həyat normalarını təsbit etmək ona verilməmişdir, çünki artıq başqaları tərəfindən qərarlaşdırılıb.

M. Norkhaymerin mövqeyinə görə ağıl artıq obyektiv və universal həqiqətlər axtarışında deyil ki, onlara doğru istiqamətlənsin, onun işi verilmiş məqsədlər üçün alətlərlədir. Hər şeyi sistem, yəni hakimiyyət həll edir. Pozitivizmdə göstərildiyi kimi, formallıq aspektində subyektiv dərrakənin obyektiv məzmundan asılı olması məqamı vacibdir. Subyektiv dərrakənin instrumental aspekti və hetero məzmunu isə praqmatizmlə vurğulanır.

Ümumiyyətlə, Norkhaymerin mülahizələrinə uyğun olaraq dərrakə tamamilə sosial proses tərəfindən əsarət altına alınmışdır. İnstrumental məqsəd yeganə meyar olduğundandır ki, onun da başlıca funksiyası təbiət və insanlar üzərində hökmranlıq etməkdən ibarətdir. Beləliklə, “sistem” və “administratorluq” insanı sərt bir “blok-sxem”in elementinə çevirmişdir ki, bu da onun öz taleyini müəyyənləşdirib istədiklərini həyata keçirməsinin sanki problemə çevirmişdir. Təbiət isə bütövlükdə bizim tərəfimizdən istifadə edilən xalis materiyaya müncər edilib.

M. Norkhaymer obyektiv dərrakədən subyektiv dərrakəyə keçidi təsadüfi hal hesab etmir. Səbəb qismində isə əsasən bunu göstərir: obyektiv fəlsəfə öz zəmilərinin dözümsüzlüyü üzündən çökmüşdür. Hazırda nə “xidmətdə duran fəlsəfə” yə çevrilmiş fəlsəfəni, nə də reallığı əks etdirmək iqtidarında olmayan incəsənəti xilas etmək qeyri-mümkündür.

Müəllif haqlı olaraq göstərir ki, bir vaxtlar incəsənət, ədəbiyyat, fəlsəfə səy göstərirdilər ki, varlıqların və həyatım sözünün mənasını ifadə etsinlər, onların sükutunu eşidilən səsə çevirsinlər, təbiətə elə bir orqan versinlər ki? onun iztirabları anlaşılsın. Bu isə öz növbəsində reallıqları öz adı ilə çağırmaq imkanı verirdi. Bu gün təbiətin əlindən onun özünün danışmaq qabiliyyəti də alınmışdır. Elə bir zaman var idi ki, insanlar hər bir ifadənin, sözün, nalə və jestin daxili məna və zənginliyinə inanırdırlar. İndi isə onlar göstərilənlərin keçici şəraitlə izah və qəbul olunduğunun şahidi olurlar. Elm, taleyüklü problemlər haqqında susaraq nəinki fəlsəfənin xarabalıqları üzərində şadlıq edir, hətta şeytani qüvvələrlər əlbirlik edirlər.

M. Norkhaymerin əldə etdiyi nəticələr də, onun özünün etiraf etdiyi kimi, uğurlu sayıla bilməz. Həmin nəticələr aşağıdakılardan ibarətdir:

1. təbiət-bu, insan əlində adi alətdir, obyektiv məqsədin olmadığı şəraitdə heç bir yüdud tanımayan istismarın obyektidir;
2. müəyyən qrup maraqlarına xidmət etməyən təfəkkür faydasız səmərəsiz sayılır;
3. bu cür əqli deqradasiya hakimiyyət-iqtidar sahiblərinin tamamilə qane edir;
4. ram edilmiş “mütəfəkkirlər”in köməyilə kapital və əmək bazarına nəzarət edib idarəetməni həyata keçirmək indi daha əlverişli olmuşdur;
5. hazırda kütləvi mədəniyyət elə bir həyat tərzi aşılayır ki, onu qəbul edib sözdə alqışlayanların özləri bu həyat tərzində nifrət edirlər;
6. fəhlələrin məhsuldar qabiliyyəti texniki tələblərə tabe edilmişdir, şəhər hakimiyyəti isə standartlari özünün istədiyi kimi müəyyənləşdirir, istədiyi istiqamətlərə yönəldir;
7. sənaye sahəsində fəaliyyətin ilahiləşdirilməsi heç bir sərhəd tanımır, asudə vaxt isə qüvvələrin bərpası üçün ayrılmış vaxtdan artıq olmamalıdır;
8. məhsuldarlığının əhəmiyyəti ümumi zərurətlə deyil, hakim strukturların şəxsi mülahizələri ilə müəyyən edilən fayda ilə uzlaşmalıdır.

Göründüyü kimi, Norkhaymerin gəldiyi nəticələrin heç birində nikbin ruh yoxdur. O, vəziyyətin belə davam edəcəyindən ehtiyat edərək, bütün ümidlərini ağlın və dərrakənin zəfər çalacağına bağlayır.

Filosofun fikrincə, yuxarıda qeyd edilən situasiyalarda əqlin bəşəriyyətə təklif etdiyi səmərəli xidmət ondan ibarət ola bilər ki, zəfər çalan ağıl-dərrakə ifşa olunsun. Əsl mənada dövrü o insanlar təmsil edirlər ki, onlar sanki cəhənnəm odunda alışıb yanıblar, zülmə və səfalətə məruz qalıblar, cəlladlarla qeyri-bərabər mübarizədə məğlubiyyətə uğrayıblar. “Fəlsəfənin vəzifəsi – bu, bütün göstərilənləri sözlərin dilinə çevirməkdən ibarətdir ki, insanlar müstəbidliyin sükuta çevirdiyi səsləri eşidə bilsinlər.

M. Norkhaymerin fikir və mülahizələri ilə bütövlükdə razılaşmaq mümkündür, lakin onun fəlsəfi düşüncələrində və cəmiyyətin gələcəyi ilə bağlı proqnozlarında bəzi mübahisəli məqamlara da təsadüf olunur. Məsələn, biz qətiyyən qəbul edə bilmərik ki, obyektiv fəsəfə zəminlərinin dözülməzliyi üzündən çökmüşdür və elə bu səbəbə görə də subyektiv ağıl-dərrakə hökmran bir mövqe əldə etmişdir. Əsla belə deyil. Obyekt fəsəfə çökməmişdir (bu heç vaxt ola bilməz) və onun zəminləri hazırda da olduqca qüdrətli, məhsuldar də gələcək üçün perspektivlidir.

İkinci məqam. Kütləvi mədəniyyət heç də yalnız insanların nifrət edə biləcəyi həyat tərzi aşılamır. Həyat tərzi hər bir fərdin özünün müəyyən etdiyi, cəmiyyətdə hamılıqla qəbul edilmiş digər yaşayış norma və qaydalarından irəli gəlir. Bunda isə mədəniyyətin heç bir təqsiri ola bilməz. Mədəniyyət diqtə etmir, ənənə və ya nümunələr verir. Həmin ənənə və ya nümunənin qəbul edilib-edilməməsi hər bir fərdin şəxsi münasibətindən asılıdır. Məgər, yüksək mədəniyyət ənənələrinə malik olan cəmiyyətlərdə tüfeylilik, əyyaşlıq və ya avaracılıq yoxdur. Yaxud, əksinə, mədəniyyəti o qədər də zəngin və yüksək olmayan cəmiyyətlərdə öz nümunəvi davranışı, başqalarına münasibəti və hüquqlara hörməti ilə seçilən fərdlər yoxdurmu?

Alman filosofu və tarixçisi Osvald Şpenqler (1880-1936) Qərbi Avropa mədəniyyətinin süquta uğrayaraq dövranlı, dramatizmlə dolu sivilizasiya fazasına qədəm qoyduğunu qabaqcadan söyənlərdən biri olmuşdur. O özünün “Avropanın qürubu” adlı əsərində göstərir ki, artıq yenilik işığında, yüksək bədii və metafizik məhsuldarlıqdan məhrum olan xalis ekspansionist fəaliyyət əsri başlamış, çılpaq texnisizm hökmran mövqeyə keçmişdir. O. Şpenqlerin fikrincə, xarici ekspansiya bütün xalqlar üçün əhəmiyyətli olan iki imperialist formada təzahür edir: ingilis realizmi ve alman sosializmi.

Müxtəlif dövlətlərdə birləşmişlər qədim millətlər əvəzinə yeni dünya nəhəngləri-iri dövlətləri yaranmışdır ki, bunlar da elə bir fövqəl gücə malik olmuşlar ki, bunlarla müqayisədə başqa ölkələr əyalət rolunda çıxış edir. Dünya hökümranlığı uğrunda müharibələr aparılır ki, bu da həqiqi mədəniyyəti mənasızlaşdırır. Nəticə etibarilə aşağıdakı mənzərə yaranır:

- çoxmilyonu şəhərlər meydana gəlir, kütləviləşmə baş veri;
- mədəni təsisatların və fermerlərin psevdo elmləşdirilməsi təzahür edir;
- insanın və dünyanın maşınizasiyası baş verir;
- bəşəriyyət banklara tabe etdirilir.

O. Şpenqler demək olar ki, çox da uzaq olmayan gələcəyin sosial-siyasi, mənəvi-psixoloji formalarını və vəziyyətini qabaqcadan görə bilmişdir. Filosof 1920- ci ildə qələmə aldığı “Prussiyaçılık və sosializm” adlı kitabında Prussiya dövlətini yüksək qiymətləndirərək qeyd edirdi ki, burada “idarəetmə-qulluq, məsuliyyətli siyasətçi isə məmur idi, o, tama xidmət edirdi”.(Afanasyev, V. V. (2003). Politicheskaya filosofiya Osvalda Shpenglera [Political philosophy of Oswald Spengler]. Moscow.)

O.Şpenqler ingilis liberalizminə qarşı müxtəlif mövqelərdən çıxış etmiş və onu alverçi ruhun ifadəçisi qismində qiymətləndirmişdir. Filosof göstərirdi ki, biz ingilis-sakson ənənəsi dedikdə, burada ingilis liberalizminə xeyli “pay” düşdüyünü nəzərdə tuturuq, lakin eyni zamanda ABŞ-ın nəzəri-praktiki təcrübəsinin də bu mənada mühüm və xüsusi rola malik olmasını yaddan çıxarmırıq.

Qeyd etmək zəruridir ki, Şpenqler heç vaxt şovinist mövqeli filosof-tarixçi olmamışdır. O, yalnız ardıcıl surətdə Almaniyanın milli dirçəlişi uğrunda çalışan mütəfəkkir olmuşdur. Şpenqler bu istiqamətdə göstərdiyi səylərin də ingilis liberalizminin Yeni dövr siyasi fəsəfəsinin son paradiqması rolunda çıxış etməsi fikrini yalnız qənaətedici sayıb. Ümumiyyətlə, alman filosofunun yaradıcılığı nəinki ingilis liberalizminə, bütünlükdə ingilis -sakson millətçiliyinə ziddir.

Göstərmək lazımdır ki, ingilis-sakson millətçiliyin təməlində ilkin məzun mahiyyəti etibarilə ingilis millətçiliyindən ibarətdir. İngilis millətçiliyi ilk protestant müharibələri dövründə ictimai qarşılıqlarla, vətəndaş müharibəsi və radikal kalvinist islahatlarla parçalanmış icmanın vahidliyini qoruyub-saxlamaq aləti kimi Oliver Kromvel dövründə yaranmışdır. (Dugin, A. G. (2004). Filosofiya politiki [Philosophy of politics]. Moscow.)

“Kalvinizm”-əsası Jan Kalvin tərəfindən qoyulmuş dini-fəlsəfi protestant cərəyandır. Kalvinizm Cenevrədən Fransaya, Hollandiyaya, Şotlandiyaya və buradan da İngiltərəyə

yayılmışdır. Məhz kalvinizmin təsiri altında XVI əsrdə Hollandiyada və XVII əsrdə İngiltərədə sosial inqilablar baş vermişdir.

İngilis millətçiliyi o dövrdə müasirlik ruhuna cavab verirdi və mahiyyətinə görə liberal xarakter daşıyırdı. O, burjua cəmiyyətinin konsolidasiyası aləti kimi formalaşmış və burjua dövlətinin əxlaqi-mənəvi dayaqlarına xidmət etmək məqsədi daşımışdır. Onun bu xüsusiyyəti hazırda da yaşamaqdadır.

İngilis millətçiliyi nə fərdiyyətçiliyə, nə fritreyderçiliyə qarşı çıxmır. Əksinə, bu millətçilik həm fərdiyyətçiliyi, həm fritreyderçiliyi tamamlayır, bunları müdafiə edir. "Friderçilik" ingilis sözündəndir və dilimizə azad ticarət kimi tərcümə olunur. O, dövlət, cəmiyyət, etika, estetika və s. ifadələri əks etdirməklə maksimum azadlığı əks etdirən liberal prinsip kimi də qəbul olunur.

Deməli, ingilis millətçiliyi mahiyyəti etibarilə liberal səciyyə daşısa da, əvvəlcədən özünü etik, ümumbəşəri, Mütləq Ruhun tələblərindən irəli gələn əxlaqi qanunlardan kənarda saxlayır. Dövlətin dayanıqlığı üçün işə saldığı "əxlaq" qaydaları isə sadəcə olaraq, Şpenqlerin təbirincə desək, alış-veriş, ticarət liberalizminin bazis nümunəsidir. Bu "əxlaq"da Hegelin hüquq fəlsəfəsində açıqlandığı azadlıqdan və ədalətdən əsər-əlamət yoxdur.

İngilis millətçiliyi ingilis-sakson variantında daha mexanistik xarakter alır. Burada pozitivist və praqmatik fəlsəfi cərəyanlar da özünü bütün müsbət töhfələrinə baxmayaraq az rol oynamamışdır. İngilis-sakson liberal millətçiliyi təbliğatın və sosial mifologiyanın köməyilə kütləri hakim elitanın əmlakı və siyasi maraqlarının mühafizəsinə səfərbər edir.

Müasir ingilis-sakson millətçiliyi birbaşa nə mədəniyyətlə, nə etnosla, nə dinlə, nə irqlə, nə də etiqadla bağlı deyildir. Başqa sözlə, o, aydın bir məzmuna malik deyil və kollektiv eyniləşdirmə funksiyasını sanki səthi daşıyır. Onun məqsədi vətəndaş cəmiyyəti üzvlərinin səfərbərliyi hesabına bu cəmiyyəti potensial xarici təhdidlərdən müdafiə etməkdən ibarətdir. Müstəqil məzmun və sərbəst məna kəsb etmədiyinə görə xarici təhlükə uzaqlaşdıqca və yaxud aradan çıxdıqca ingilis-sakson millətçiliyi də yox olmalıdır. Bu adi, sadə məntiqin kökündən irəli gəlir. Heç bir millətçilik əbədi yaşaya bilmədiyi kimi, ingilis-sakson millətçiliyi də labüd və qaçılmaz məhfə məhkumdur.

Mahiyyətinə görə özü ən başlıca "şeytan əməli" olan müasir ingilis-sakson millətçiliyi insan hüquq və azadlıqlarının müdafiə olunması şüarı altında bütün dünyada qanlı, məkrli əllərini uzatmadığı yer qoymadı. İlk hədəf kimi seçilənlər isə müsəlmanlar, islam ölkələri oldu. Onların bir qismi digərlərinin üzərinə salındı, "yaxşı" müsəlmanlar "pis" müsəlmanlara qarşı qoyuldu (ingilis-sakson meyarları çərçivəsində). "Qlobal sülh" yaratmaq adı ilə tonlarla müasir ağırçəkili bombalar insanların başına yağdırıldı, yüz minlərlə günahsız insan ardı-arası kəsilməyən partlayışlarda məhv edilib külə döndərirdi. Bütün bunların adını isə "İslam təməlçiliyi"ndən bəhrələnən "islam terrorçuluğu" qoydular.

## NƏTİCƏLƏR

Araşdırma nəticəsində müəyyən olunmuşdur ki, vətəndaş cəmiyyəti tarixi inkişafın müxtəlif mərhələlərində fərqli məzmunlar kəsb etmiş, lakin onun əsas ideyası – insan hüquqlarının və azadlıqlarının qorunması və dövlət hakimiyyətinin hüquqla məhdudlaşdırılması – dəyişməz qalmışdır.

Beləliklə, yuxarıda qeyd etdiyimiz kimi, Qəbrə yaxud ABŞ-ın timsalında nümunəvi vətəndaş cəmiyyəti, eləcə də həqiqi demokratik cəmiyyəti bu gün üçün utopiyadan savayı başqa şey deyildir. İstər vətəndaş cəmiyyəti, istərsə də özündə həqiqi demokratiya elementlərini ehtiva edən cəmiyyəti, şübhə yoxdur ki, azad insanların özləri quracaqdır. Bəşəriyyət bu gün hələ ki, buna hazır deyil, lakin bunu xülya hesab etmək düzgün olmazdı. Sosial varlıq olan insan hər şeyə qadirdir və şübhə yoxdur ki, bu istəyinə də nail olacaqdır. Təbiəti etibarilə qurub-yaratmağa meyilli olan azad və bərabər cəmiyyət üzvləri özlərinin və başqalarının zəruri tələbatlarını təmin etmək məqsədi ilə həmişə birləşmiş və bu birliyin nəticəsi olaraq mühüm uğurlar əldə etmişlər.

## NƏTİCƏLƏRİN MÜZAKİRƏSİ

Qeyd etmək lazımdır ki, müasir humanitar elmlərdə vətəndaş cəmiyyətinə kifayət qədər bədbin baxışlar da mövcuddur. Bu, əsasən erkən industrial inkişaf dövründə yalnız Qərbdə müşahidə edilmişdir. Sonradan şəxsi maraqlar ictimai maraqlarla daha çox ziddiyyətdə olmuş və vətəndaş cəmiyyəti tədricən insanların kütləvi cəmiyyəti kimi təsəvvür edilmişdir. Kütləvi cəmiyyətdə isə fərdlər arasındakı qarşılıqlı münasibətlər formal xarakter daşıması ilə diqqəti cəlb edir. Məsələ burasındadır ki, vətəndaş cəmiyyəti nisbi çoxsaylı olmayan cəmiyyətdir və bu cəmiyyətdə insanların həyatı az və ya çox dərəcədə üzdə olur, insanlar bir-birinə etibar edir, qarşılıqlı etibar isə qarşılıqlı hörmət və mərhəmətlə müşayiət olunur.

Müxtəlif tarixi dövrlərin vətəndaş cəmiyyətləri də müxtəlif ola bilər. Belə cəmiyyətlər haqqında ideyaların daşıyıcıları da istənilən qüvvələr ola bilər. Məsələn, milli vətəndaş cəmiyyətini qeyd edilən vətəndaş cəmiyyətlərindən biri kimi səciyyələndirmək olar. Milli vətəndaş cəmiyyəti özünəməxsus aşağıdakı bir sıra elementlərdən ibarət ola bilər:

1. ictimai münasibətlərin dünya iştirakçılarına xidmət edən sosial şəbəkələr;
2. müəyyən ərazidə yaşayan vətəndaşları əhatə edən yerli təşkilatlar;
3. fərdlərə xidmət göstərmək üçün ixtisaslaşdırılmış qeyri-dövlət təşkilatları.

## ƏDƏBİYYAT


1. Afanasyev, V. V. (2003). *Politicheskaya filosofiya Osvalda Shpenglera* [Political philosophy of Oswald Spengler]. Moscow.
2. Dugin, A. G. (2004). *Filosofiya politiki* [Philosophy of politics]. Moscow.
3. Khantington, S. (2004). *Kto my? Vyzov amerikanskoy natsionalnoy identichnosti* [Who are we? The challenge of American national identity]. Moscow.
4. Malashkhiya, G. (2003). *Perspektivy cheloveka v globaliziruyushchemsya mire* [Human perspectives in a globalizing world]. Saint Petersburg.
5. Reale, D. (1997). *Zapadnaya filosofiya ot istokov do nashikh dney* [Western philosophy from origins to our days] (Vol. 4). Moscow.
6. Rustamov, Y. I. (2005). Sivilizasiyaların dialoqu-bəşəriyyətin vəhdətinə aparan yol [The dialogue of civilizations - the path leading to the unity of humanity]. *Şərq-Qərb: Sivilizasiyaların dialoqu, 1.*


## SUMMARY

## MODERN WESTERN CONCEPTS OF CIVIL SOCIETY: LIBERAL DEMOCRACY AND THE CONTEXT OF GLOBALIZATION


**Mehriban Babakhanova**



The article analyzes the conceptual foundations of civil society and its role in the modern world. **Background:** The study explores the historical stages of civil society formation and the legal, philosophical, and socio-economic factors influencing its development. The aim is to highlight civil society as an integral component of the democratic state and legal system. **Methods:** The research employs comparative legal analysis, historical approach, and systematic review of sources. **Results:** The findings demonstrate that civil society is a crucial mechanism for protecting human rights, ensuring the rule of law, and strengthening social solidarity. Within liberal democracies, it complements the functions of the state and enhances public participation. **Conclusion:** In the era of globalization, civil society emerges not only as a national but also as an international safeguard of the values of law and democracy. It thus plays a vital role in fostering sustainable democratic development and reinforcing the principles of justice, equality, and civic responsibility in contemporary societies.



**Keywords:** civil society; liberal democracy; globalization; human rights; Anglo-Saxon model; nationalism; dialogue of civilizations

## РЕЗЮМЕ

## СОВРЕМЕННЫЕ ЗАПАДНЫЕ КОНЦЕПЦИИ ГРАЖДАНСКОГО ОБЩЕСТВА: ЛИБЕРАЛЬНАЯ ДЕМОКРАТИЯ И КОНТЕКСТ ГЛОБАЛИЗАЦИИ

**Мехрибан Бабаханова**

Статья посвящена анализу концептуальных основ гражданского общества и его роли в современном мире. **Общие сведения:** исследование охватывает исторические этапы формирования гражданского общества, а также правовые, философские и социально-экономические факторы, оказавшие на него влияние. Цель заключается в том, чтобы показать гражданское общество как неотъемлемую часть демократического государства и правовой системы. **Методы:** использованы сравнительно-правовой анализ, исторический подход и систематизация источников. **Результаты:** установлено, что гражданское общество является важным механизмом защиты прав человека, обеспечения верховенства закона и укрепления социальной солидарности. В условиях либеральной демократии этот институт дополняет функции государства и способствует расширению общественного участия. **Заключение:** в эпоху глобализации гражданское общество выступает ключевым фактором сохранения ценностей права и демократии не только на национальном, но и на международном уровне.

**Ключевые слова**: гражданское общество; либеральная демократия; глобализация; права человека; англосаксонская модель; национализм; диалог цивилизаций.